# "AZƏRBAYCAN BAYRAĞINI həmişə yüksəklərə qaldıracağıq"

## Olimpiada qalibləri

Biliyinə yetərincə güvənən yeniyetmə və gənclərin çoxdan həvəslə gözlədikləri bir bilik yarışması da bu günlərdə öz müsbət nəticələri ilə ürəkləri sevindirdi. Artıq bir müddətdir ki, Gürcüstanın Kutaisi şəhərində keçirilən Yeniyetmələrin Avropa İnformatika Olimpiadası barədə təhsil ocaqlarında, radio və televiziya kanallarında, mətbuat səhifələrində maraqlı fikirlər yer almaqda davam edir. Bu olimpiadaya dünyanın 24 ölkəsindən 96 məktəbli qatılıb və bunların da arasında 4 azərbaycanlı şagird iştirak edib. Sevindirici haldır ki, mötəbər bilik yarışmasının nəticələrinə görə Akademik Zərifə Əliyeva adına liseyin 10-cu sinif şagirdi Ayxan Dəmirli gümüş medala, Fizika, riyaziyyat və informatika təmayüllü respublika liseyinin 10-cu sinif şagirdləri Raul Cəfərli və Elvin İmanlı bürünc medala, Sumqayıt şəhəri 23 nömrəli tam orta məktəbin 9-cu sinif şagirdi Nəsir Bəşirov isə həvəsləndirici mükafata layiq görülüblər. Məlumat üçün bildirək ki, artıq 7-ci dəfə təşkil olunan bu olimpiadaya şagirdlərimiz 2017-ci ildən qatılırlar. Təbii ki, bu yarışmalarda uğurlarımız da kifayət qədər qənaətbəxş olub və məktəblilərimiz 3 gümüş və 6 bürünc medala sahib ola biliblər.



# Məktəblilərimiz Yeniyetmələrin Avropa İnformatika Olimpiadasından medalla qayıdıblar

### Azərbaycanı onlara o qədər sevdirdim ki...

...Gərgin keçən son olimpiada haqqında təəssüratlarını bölüşərkən Akademik Zərifə Əliyeva adına liseyin şagirdi Ayxan Dəmirli bu gün də öz həyəcanını gizlədə bilmirdi. Yeniyetmə olimpiada qalibi deyir ki, qaliblərin adları çəkiləndə o qədər həyəcanlı idi ki, bunu təsəvvür belə etmək mümkün deyildi. Özümə nə qədər güvənsəm də adımı olimpiada qaliblərinin siyahısında eşidəndə qulaqlarıma inanmadım. Çünki bu, doğrudan da çox mötəbər bir yarışma idi və etiraf edim ki, iştirakçılar hamısı güclü rəqiblər idilər. Düzdür, müəllimimə 1-ci yeri qazanacağımı söz vermişdim, ancaq gümüş medala sahib oldum. Bunun da bircə səbəbi var idi.

Olimpiada mənim təsəvvür etdiyimdən qat-qat çətin idi. Ancaq zərrəcə ruhdan düşməmişəm. Bilirsinizmi niyə? Çünki mən orada özümə çoxlu maraqlı dostlar qazandım. Biz olimpiada müddətində birgə hazırlaşırdıq, bir-birimizə kömək olurduq, demək olar ki, darıxmağa vaxt tapmırdıq. Özümü vətənim Azərbaycanda olduğum kimi hiss edirdim. Dostlarımla ingilis dilində sərbəst danışır, onlarla fikir mübadiləsi aparırdım. Müxtəlif ölkələrin təmsilçilərinə təhsil aldığım lisey haqqında, şəhərimiz, adət-ənənələrimiz barədə ətraflı məlumatlar verirdim. Onlar da öz məktəbləri və ölkələrinin maraqlı tarixçələri barədə mənə geniş bilgilər verirdilər. Azərbaycanı onlara o qədər sevdirdim ki, artıq Bakıya gəlmək, doğma paytaxtımız haqqında danışdıqlarımı gözləri ilə görmək həvəsində olduqlarını bildirirdilər. Mən də təbii olaraq böyük məmnuniyyətlə dostlarımı vətənimizin dilbər guşələri ilə tanış olmağa dəvət etdim.




### İlk sevincimi də müəllimlərimlə bölüşdüm

Fizika, riyaziyyat və informatika təmayüllü respublika liseyinin şagirdi Raul Cəfərli də böyük məmnuniyyətlə olimpiada haqqında təəssüratlarını bölüşdü. Dedi ki, belə bir məsuliyyətli bilik yarışmasında təmsil olunmağım ruhumu göylərə qaldırdı. İnanın, mənim üçün iştirakçı olmağım özü artıq qalib olmağa bərabər kimi idi. Yarışöncəsi düşünürdüm ki, dünyaca məşhur olan karifeylərin də elə taleləri belə gülüb üzlərinə, ilk pillə və sonrakı yüksəlişlər. Deməli, mənim də ilk pilləm elə bu bilik yarışması olacaq. Qalib olmağa ümidimi artıran amillərdən biri də bu idi ki, informatika müəllimlərimiz Rəşad Məmmədov, Kənan Əsgərli, Ruslan Mehdiyev də bizimlə idilər. İlk sevincimi də də müəllimlərimlə bölüşdüm.

Müxtəlif illərdə respublika fənn olimpiadalarında informatika fənlərindən bir qızıl, bir gümüş medallara layiq görülən həmçinin ötən ildə keçirilmiş İnfo, (1) Cup olimpiadasında bürünc medal qazanan Raul Cəfərli öz təəssüratlarını bölüşərkən dedi ki, Gürcüstanın Kutaisi şəhərində yeddi gün qalıblar. İmtahanlardan sonra hər dəfə Kutaisinin gəzməli-görməli yerlərinə gəzintiyə çıxır, ekskursiyalar təşkil ediblər. Fransalı dostu Raphaellə ünsiyyəti də olduqca xoşuna gəlib. Onunla ingiliscə imtahan suallarını birlikdə hazırlayıb.

### Arzular tükənməz olur

Fizika, riyaziyyat və informatika təmayüllü respublika liseyinin şagirdi Elvin İmanlı da imtahan ərəfəsində yaşadığı sevincli, eyni zamanda həyəcanlı anlardan söz açıb. Bildirib ki, arzulardan arzu doğduğuna bu dəfə bir daha inandım. Arzularsa tükənməz olur,- deyirlər. Belə bir mötəbər bilik yarışmasında iştirak etmək vaxtı ilə mənim də ümdə arzum idi. İndisə o reallaşdı və yeni arzular, başqa fərqli olimpiadalara qatılmaq arzusu yaranır. Uğurlarımızda müəllimlərimizin əməyinin əvəzsiz olduğunu xüsusilə vurğulamaq istəyirəm. Hər dəfə olimpiadalardan medallarla qayıdanda onların sevincinin hədd-hüdudu olmur. Çünki həmin medallar məhz müəllimlərimizin gərgin əməyi nəticəsində olub. Biz qazandığımız bütün uğurlara görə müəllimlərimizə borcluyuq. Arzum gələcəkdə ali təhsilimi xarici ölkələrin birində davam etdirməkdir.

### Daha çox çalışacağına söz verdi

Həvəsləndirici mükafat sahibi olan Sumqayıt məktəblisi, 23 nömrəli tam orta məktəbin 9-cu sinif şagirdi Nəsir Bəşirov da olimpiadanın nəticələrindən razı qaldığını söylədi. Nəsir daha çox bal toplaya biləcəyini, ancaq həyəcandan canını qurtara bilmədiyini gülə-gülə etiraf etdi. Ən böyük arzusu ölkəmizi daha mötəbər yarışlarda təmsil etməkdir. Qürurla əminliyini ifadə edir ki, Azərbaycan bayrağını həmişə yüksəklərə qaldıracağıq. Müxtəlif illərdə keçirilən bilik yarışmalarında 2 qızıl, 1 gümüş, 3 bürünc medal qazanan gəncimiz növbəti yarışmalarda da birincilik qazanacağına ümid bəsləyir. Məktəbli olimpiada ərəfəsində dost olduğu həmyaşıdları ilə bağlı xoş və səmimi təəssüratlarını bölüşdü və daha çox çalışacağına söz verdi.

...Demək olar ki, olimpiada iştirakçılarının hamısı eyni əhvali-ruhiyyə ilə bu mötəbər bilik yarışmasında qazandıqları uğurlarla bərabər tanış olduqları məktəbli dostlarının onların hər biri üçün necə əziz və qiymətli olduğu, dostlarla ünsiyyətlərin yaddaşlarında buraxdıqları silinməz izlər barədə hədsiz sevinc və fərəh hissi ilə söz açırdılar. Gürcüstanın Kutaisi şəhərində onların keçirdikləri yaddaqalan günlərin həyatlarında buraxdığı izlər barədə olimpiada iştirakçılarının hər birinin dilindən ayrı-ayrılıqda eşitdim.

Etiraf edim ki, xoş əhvali-ruhiyyəyə köklənən olimpiada qalibləri ilə söhbətdən heç mən də doymadım. Saatlarla söylədikləri maraqlı tarixçələri dinləmək özümdə də xoş ovqat yaradırdı. Adam lap təzədən gəncləşmək, çoxdan arxada qoyduğu tələbəlik illərinin maraqlı anlarını olimpiada qalibləri ilə bərabər yaşamaq istəyirdi.

**Sifai SƏFƏROVA**